DÖVLƏT
VERGİ
XİDMƏTİ

Daşınmaz əmlakın təqdim edilməsinin vergiyə cəlb edilməsi halları barədə

Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən 01.01.2022-ci il tarixdən etibarən

- Fiziki şəxsin **mülkiyyətində (o cümlədən ər və arvadın ümumi birgə mülkiyyətində)** yalnız bir yaşayış sahəsi olduğu halda **bu şəxsin** həmin yaşayış sahəsi üzrə qeydiyyatının olub-olmamasından asılı olmayaraq **azı 3 təqvim ili ərzində** həmin **yaşayış sahəsində** yaşamasını təsdiq edən sənədlər (kommunal xidmətləri göstərən təşkilatlar tərəfindən şəxsin həmin ünvanda abonent kimi qeydiyyatda olmasını təsdiq edən arayışlar) **olduğu halda** həmin yaşayış sahələrinin təqdim edilməsi **sadələşdirilmiş vergidən azad edilir**.

Daşınmaz əmlakın təqdim edilməsi zamanı dövlət büdcəsinə ödənilməli olan vergi ilə bağlı ətraflı məlumatla "Daşınmaz əmlakın təqdim edilməsindən əldə edilən gəlirin sadələşdirilmiş vergiyə cəlb edilməsi" adlı bukletdən tanış ola bilərsiniz.

BAKI — 2022

1195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

- Fiziki şəxs sökülmüş binada yerləşən yaşayış sahəsində **azı 3 təqvim ili ərzində** (sökülmüş və sökülmüş binanın yerində tikilən yeni binada yaşayış yeri üzrə qeydiyyatda olduğu müddətlər cəmlənməklə) yaşayış yeri üzrə qeydiyyatda olduğu halda sökülmüş binanın yerində tikilən yeni binadan həmin fiziki şəxsə verilən yaşayış sahəsinin təqdim edilməsi **sadələşdirilmiş vergidən azad edilir**.*

  - ***Bu zaman qeyd edilən azadolma** yerli icra hakimiyyəti orqanı tərəfindən verilmiş və özündə yaşayış sahələrinin sökülməsini və sökülmüş yaşayış sahəsinin müqabilində yeni yaşayış sahəsinin verilməsini təsdiq edən arayış əsasında fiziki şəxsin sökülmüş yaşayış sahəsinin sahəsi həddində (artıq sahə verildiyi halda isə sökülmüş yaşayış sahəsinin 20 faizi həddində artıq sahə üzrə) tətbiq edilir.

- Fiziki şəxsin daşınmaz əmlakı Gəncə, Sumqayıt, Xırdalan, Abşeron rayonunun qəsəbə və kəndləri, Şirvan, Mingəçevir, Naxçıvan, Lənkəran, Yevlax, Şəki və Naftalan şəhərlərindən başqa digər rayon (şəhər) və qəsəbələrdə (kəndlərdə) yerləşdikdə, həmin daşınmaz əmlakların təqdim edilməsi zamanı hesablanan sadələşdirilmiş vergi məbləğinə tətbiq edilən zona əmsalı **0,5-dən 0,3-ə endirilmişdir**.

- Hüquqi və fiziki şəxslər tərəfindən daşınmaz əmlakın, habelə əmlak kompleksi şəklində müəssisələrin dövlət orqanlarına (qurumlarına) əvəzsiz olaraq verilməsi **sadələşdirilmiş vergidən azad edilmişdir**.

Nə dəyişdi?

❖ **01.01.2022-ci il tarixədək qüvvədə olan qanunvericiliyə əsasən**

- fiziki şəxsin yalnız 1 yaşayış sahəsinin olduğu və bu yaşayış sahəsində uzun müddət yaşamasına baxmayaraq həmin yaşayış sahəsi üzrə sənədləşmənin olmaması səbəbindən yaşayış yeri üzrə qeydiyyata düşə bildiyi hallar, habelə
- fiziki şəxsin yaşayış sahəsinin satışı zamanı vergi hesablanarkən mülkiyyəti təsdiq edən sənədlərin gec verilməsi və sökülən binaların əvəzinə vətəndaşlara yeni mənzilin verilməsi halları vergiyə cəlb edilmə zamanı nəzərə alınmırdı.
- Hüquqi və fiziki şəxslərin mülkiyyətində olan daşınmaz əmlakın, habelə əmlak kompleksi şəklində müəssisələrin dövlət orqanlarına (qurumlarına) əvəzsiz olaraq verilməsi sadələşdirilmiş vergiyə cəlb edilirdi.
- Fiziki şəxsin digər rayon (şəhər) və qəsəbələrdə (kəndlərdə) yerləşən daşınmaz əmlakı təqdim edilərəkən hesablanan sadələşdirilmiş vergi məbləğinə 0,5 əmsal tətbiq edilirdi.